# YUBİLEYLƏR

## SƏBUHİ İBRAHİMOV – 50



Səbuhi Məmmədəli oğlu İbrahimov 1971-ci il iyun ayının 10-da Naxçıvan Muxtar Respublikası Culfa rayonunun Ərəzin kəndində anadan olub. 1988-ci ildə Ərəzin kənd orta məktəbini bitirib. 1993-1998-ci illərdə Bakı İslam Universitetinin İslamşünaslıq fakültəsində, 2002-2004-cü illərdə isə Naxçıvan Dövlət Universitetinin "Fəlsəfə tarixi" ixtisası üzrə magistratura pilləsində təhsil alıb və burada "Şərq peripatetizmi" mövzusunda magistrlik dissertasiyası müdafiə edib. 1994-2005-ci illərdə Ərəzin kənd orta məktəbində fars dili müəllimi işləyib. 2005-ci ildə AMEA Fəlsəfə və Siyasi-hüquqi Tədqiqatlar İnstitutunun dissertantı olub və 2008-ci ildə Bakı Dövlət Universitetinin Dissertasiya Şurasında "İslamda imamilik" mövzusunda dissertasiya müdafiə edərək fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb. 2012-ci ildə dosent elmi adına layiq görülüb. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunda böyük laborant (2006), kiçik elmi işçi (2007-2008), elmi işçi (2009) vəzifələrində çalışıb. 2009-cu ildən bu günədək həmin fondun əlyazmaların kataloqlaşdırılması, tədqiqi və nəşri şöbəsinin müdiridir.

Dosent S.İbrahimovun elmi yaradıcılığının əsas istiqamətini Naxçıvanla bağlı qədim əlyazma və çap kitablarının araşdırılması təşkil edir. Onun indiyədək 4 monoqrafiyası, 8 kitabı işıq üzü görüb. Bundan əlavə o, 2 tərtib kitabının, 1 metodik vəsaitin, 1 dərsliyin müəllifidir. S.İbrahimovun müxtəlif beynəlxalq konfranslardakı məruzələrinin əksəriyyəti Naxçıvanın qədim əlyazma irsinin tədqinin nəticələrinin təbliğinə həsr olunmuşdur. Alim o əlyazma və çap kitablarını tədqiqata cəlb etmişdir ki, onun ya müəllifi, ya katibi, ya tərcüməçisi, ya naşiri, ya himayəçisi və ya sifarişçisi naxçıvanlı olsun. Səbuhi müəllimin Azərbaycanda və müxtəlif xarici ölkələrdə – Türkiyə, İran, Rusiya, Almaniya, Hindistan və Rumınyada çap olunan "Философская сущность в Нахчыванских рукописях (конец XIX, начало XX веков)" (Москва, 2014). "XIX əsrin axırı, XX əsrin əvvəlləri Naxçıvana dair bəzi hərbi-siyasi və mədəni əlyazma salnamələri (Bakı, 2018), "Qədim və orta əsrlər əlyazmalarında Naxçıvan haqqında qeydlər" (Bakı, 2019) kimi məqalələri, "Naxçıvanın milli-mənəvi sərvəti olan əlyazma mətnlərinin araşdırılması" (2011), "Направления исследований Нахчыванских рукописей (сборник статьей)" (2014), "Naxçıvanın mənəvi-mədəni irsinə dair əlyazma mətnləri" (2017), "Nemətullah Naxçıvani: XV əsrin görkəmli təsəvvüf və təfsir alimi" (2018), "Naxçıvan mühitinin yaratdığı kitab və kitabxana mədəniyyəti" (2019), "Naxçıvan əlyazmaları: tədqiqlər" (2021) adlı kitab və monoqrafiyalarında Naxçıvanla bağlı əlyazma və çap kitablarının mövzusu, məzmunu, ideyası və səciyyəvi paleoqrafik xüsusiyyətləri haqqında bir sıra yeni və orijinal fikir və mülahizələr irəli sürülmüşdür. Həmin tədqiqat işləri Azərbaycan əlyazmaşünaslıq elmini zənginləşdirmək baxımından da əhəmiyyətlidir. Bütün bu araşdırmaların məntiqi yekunu kimi S.İbrahimovun filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün "Naxçıvana dair

əlyazmaların filoloji-tekstoloji tədqiqi (XIX əsrin axırı, XX əsrin əvvəlləri)" mövzusunda dissertasiya işini ərsəyə gətirib.

S.İbrahimovun tərcümə və tərtib etdiyi "Əbubəkr ibn Xosrov əl-Ustad. "Munisnamə" (2008), "Sulu Fəqih. "Yusif və Züleyxa" (2008) və müxtəlif mövzulara həsr etdiyi "Hacı Molla Məhəmməd Naxçıvaninin "Səhab əd-Dümu" əsərində fəlsəfi düşüncələr. I cild" (2009), "Hacı Molla Məhəmməd Naxçıvaninin "Səhab əd-Dümu" əsərində fəlsəfi düşüncələr. I-II cild" (2011) "Şərq peripatetizmi və islamda imamilik" (2006), "İsna əşəri (12 imamilik) (2007), "Şərq peripatetizm fəlsəfəsində insan amili" (2011) adlı kitablar isə onun elmi fəaliyyətinin digər istiqamətlərini təşkil edir.

S.İbrahimovun çoxillik pedaqoji fəaliyyəti Naxçıvan Universiteti ilə bağlıdır. O, burada fəlsəfə fənninin tədrisi ilə məşğul olur.

Elmi və pedaqoji fəaliyyətinin məhsuldar bir dövründə dosent S.İbrahimovu 50 illik yubileyi münasibətilə təbrik edir, ona uzun ömür və yeni elmi nailiyyətlər arzulayırıq.

**Fərman Xəlilov**
*filologiya üzrə elmlər doktoru*